Xalq qəzeti 24 oktyabr 2025-ci il, cümə S.11.

# “Bakıya uçuş...” festivalı silsilə sərgilərlə davam edəcək







**Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin tərəfdaşlığı ilə oktyabrın 31-dən noyabrın 2-dək incəsənət, mədəniyyət və ekologiyanı bir araya gətirəcək “Bakıya Uçuş. İncəsənət Həftəsonu: Gələcəyi İNDİ Duy” incəsənət festivalı zamanı şəhərin müxtəlif qalereyalarında 10-dan çox sərgi açılacaq.**

XX və XXI əsrin ən məşhur sənətkarlarından biri, ikonik üslubu ilə insan bədənini, görmə tərzini dəyişdirən kolumbiyalı modern rəssam, heykəltaraş Fernando Boteronun, BMT və IDEA-nın birgə təqdimatı ilə Azərbaycanın qabaqcıl rəssamlarının ekoloji məsuliyyət və davamlılıq mövzusunda əsərlərini əhatə edən “Mənim dənizlərim, Mənim okeanlarım” adlı sərgilərinin oktyabrın 31-də Heydər Əliyev Mərkəzində rəsmi açılışı olacaq və noyabrın 1-2-də sənətsevərlərin ixtiyarına veriləcək.

Digər sərgilərdən 6-sı İçərişəhərdə açılacaq. Oktyabrın 31-dən noyabrın 2-dək Yeraltı Hamamda təşkil olunacaq “Axar yaddaş” sərgisi Azərbaycanda hamam mədəniyyətinin çoxqatlı semantikasını - su, yaddaş və təmizlik anlayışları kontekstində araşdırır.

Şirvanşahlar Sarayı Kompleksində “Şeh. Heç vaxt olmayan səhər” adlı sərgidə (31 oktyabr - 2 noyabr) rəssam Vüsalə Ağaraziyeva Şirvanşahlar Sarayını gecə ilə sübh arasındakı o incə, düşüncəli məqama çevrilən kontemplativ bir məkana bənzədir.

“Əcdadlar” sərgisi bizdən əvvəl yaşayanlarla aramızdakı qırılmaz bağı araşdırır. Sərgi oktyabrın 31-dən noyabrın 2-dək İçərişəhərdəki “QGallery Baku”da baş tutacaq.

Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzindəki (noyabrın 1-2-də) “Fıstıq ağacı: Yaddaşın kökləri” ədəbiyyat, sənətkarlıq və ekologiyanı birləşdirən çoxşaxəli bir layihədir.

İçərişəhərdəki Bakı Fotoqrafiya Evində (2-3 noyabr) “Bakıya uçuş: Axın halı” layihəsi çərçivəsində 8 rəssam tərəfindən şəhər mərkəzində yerləşən fəvvarələrdən ilhamlanaraq ictimai sənət əsərləri yaradılmışdır.

Ramina Səadətxanın “Od, su və öpüşlər” adlı yeni silsilə əsərləri “Nine Senses Art Center”də oktyabrın 31-dən noyabrın 2-dək təqdim olunacaq. Zəhra Məmmədovanın idarə etdiyi “Bir zamanlar Xəzər” həm bədii səyahət, həm də suyu və özümüzü yenidən görməyə çağıran bir layihədir. Sərgi YARAT Müasir İncəsənət Mərkəzində noyabrın 2-3-də nümayiş ediləcək.

“Tofiq Cavadovun 100 illiyi” sərgisi Azərbaycan Milli İncəsənət Muzeyində (31 oktyabr - 2 noyabr), “Baku Steel Art” Beynəlxalq Metal Simpoziumunun iştirakçılarının əsərləri isə eyni tarixlərdə Dənizkənarı Milli Parkında sərgilənəcək. Elvin Nəbizadənin “Sonuncu dalğa” kinetik instalyasiyası isə iki gün ərzində Daş Salnamə Muzeyində nümayiş olunacaq.

Sərgilərlə yanaşı, festival proqramına ustad dərsləri, ictimai incəsənət və şəhər turları da daxildir.

3 günlük festivalın zəngin proqramından faydalanmaq, tədbirlərdə iştirak etmək və incəsənət bayramının bir hissəsinə çevrilmək üçün www.bakuartweekend.az saytından qeydiyyatdan keçmək lazımdır.

***XQ***